UOT 373.2.

***Kifayət Rəşid qızı Məmmədova***
*Azərbaycan Respublikası Təhsil İnstitutunun baş mütəxəssisi*

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ UŞAQLARIN SOSİAL SƏRİŞTƏLİLİYİNİN FORMALAŞDIRILMASI TEXNOLOGİYASI NÜMUNƏVİ DAVRANIŞIN ŞƏRTİ KİMİ

***Кифаят Рашид гызы Мамедова***
*главный специалист Института Образования Азербайджанской Республики*

# ТЕХНОЛОГИЯ ФОРМИРОВАНИЯ СОЦИАЛЬНОЙ КОМПЕТЕНТНОСТИ ДЕТЕЙ В ДОШКОЛЬНЫХ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ КАК УСЛОВИЕ ОБРАЗЦОВОГО ПОВЕДЕНИЯ

***Kifayat Rashid Mammadova***
*senior specialist of the Institute of Education of the Republic of Azerbaijan*

# FORMATİON TECHNOLOGY OF SOCİAL COMPETENCY OF CHİLDREN İN PRESCHOOL ENTERPRİSES AS A STİMULUS FACTOR TO THEİR BEHAVIOUR

**Xülasə.** Məqalədə uşaqların ümumi inkişafında əhəmiyyətli rol oynayan sosial bacarıqların Məktəbəqədər təhsilin kurikulumunun dörd inkişaf sahəsinin tələblərinə əsasən formalaşdırılmasından danışılır. Sosial səriştəliliyin məzmunu və komponentləri, uşaq davranışın inkişafında əsas faktorlardan olan sosial texnologiyalar vasitəsi ilə sosial səriştəliliyin formalaşdırılması xarakterizə olunur.

***Açar sözlər:*** *məktəbəqədər yaşlı uşaq, ünsiyyət, sosial səriştə, fəaliyyət, məktəbəqədər təhsil müəssisəsi, inkişaf, davranış mədəniyyəti, tərbiyəçi-müəllim, texnologiya.*

***Резюме.*** В статье описывается, как социальные навыки, которые играют важную роль в общем развитии детей, формируются в рамках дошкольной программы в четырех областях развития. В то же время содержание и компоненты социальной компетентности характеризуются как основные факторы поведения в формировании социальной технологии.

***Ключевые слова:*** *ребенок дошкольного возраста, общение, социальная компетентность, деятельность, дошкольное образовательное учреждение, развитие, культура поведения, воспитатель-учитель, технология.*

**Summary**. The article describes how social skills, which play an important role in the overall development of children, are formed within the framework of the preschool program in four areas of development. At the same time, the content and components of social competence are characterized as the main factors of behavior in the formation of social technology.

***Key words:*** *preschool aged child, communication, social competence, activities, preschool educational enterprise, development, behavioral culture, educator-teacher, texnology.*

“Dünyaya gələn hər bir insan ictimai mədəniyyəti tədricən mənimsəməyə başlayaraq, özünəməxsus xüsusiyyətlər qazanıb cəmiyyətə daxil olur və başqa insanlar arasında özünü təsdiq edərək, şəxsiyyətə çevrilir. Bu proses iki istiqamətdə gedir. Bir tərəfdən, insan sosial münasibətlər sisteminə daxil olaraq, öz cəmiyyətinin mədəni təcrübəsini, onun dəyərlərini və normalarını mənimsəyir. Bu halda o, ictimai təsirin obyektidir. Digər tərəfdən isə sosiallaşaraq, ictimai fəaliyyətdə və cəmiyyətin mədəni in-kişafında daha geniş və fəal iştirak edir. Burada isə o, artıq sosial münasibətlərin subyekti, iştirakçısı kimi çıxış edir”. Sosial münasibətlərin subyekti olan insan həyatında milli-mənəvi və bəşəri dəyərləri, davranış meyarlarını özündə birləş-

dirən, cəmiyyətin mədəni inkişafında təkanverici rol oynayan sosiallaşma özünün ilk çalarlarını hələ uşaqlıq dövrlərində (1-3 yaş) elementar kommunikativ münasibətlərdə göstərməyə başlayır. Uşaqların sosial bacarıqlarının doğma ana dilimizi mənimsəyərək, kommunikativ mü-nasibətlər qurması ilə əlaqəli şəkildə inkişaf etməsi hələ uşaqlar dünyaya gəldikləri ilk günlərdən başlayaraq valideynləri, onları əhatə edən doğmaları ilə "ünsiyyət"ə girərkən gülümsəmələrində, onu çağırmalarına nitqindəki müəyyən səslər, jest və mimikalar vasitəsi ilə "cavab verməsində" və s. özünü göstərməyə başlayır və beləliklə, ətrafdakılarla elementar ünsiyyətin əsası qoyulur. Uşaqların inkişafında mühüm əhəmiyyət kəsb edən nitq artıq onların ətrafdakılarla qarşılıqlı ünsiyyətini intensivləşdirməklə, uşağın özünə və ətrafdakılara qarşı münasibətini dəyişir. 3 yaşdan başlayaraq uşağın daxili nitqə yiyələnməsi, sosial münasibətlərini koqnitiv funksiya əsasında təşkil etməsi uşağın öz fikirlərini, ehtiyaclarını ifadə etməsində, ətrafdakıların hiss və həyəcanlarına münasibət bildirməsində və s. bu kimi elementar ünsiyyət vasitəsində əks olunmağa başlayır.

İnsan həyatının əsas hissəsini təşkil edən sosial meyarlarının kiçik yaşlardan başlayaraq uşaq davranışında formalaşması və səriştəyə çevrilməsi müasir məktəbəqədər təhsilin zəruri məsələlərindən biri kimi dəyərləndirilir. Uşaqların ümumi inkişafında, ətrafdakılarla ictimai tələblər əsasında ünsiyyət qurmalarında əhəmiyyətli rol oynayan sosial bacarıqlar məktəbəqədər təhsil müəssisələrində Məktəbəqədər təhsilin kurikulumunun (3-6 yaş) dörd inkişaf sahəsinin tələblərinə əsasən formalaşdırılaraq, uşaqların davranışlarında səriştəyə çevrilir. Uşaq şəxsiyyətini formalaşdıraraq, məktəbə hazırlanmasında əsas meyarlarından olan sosiallaşmanın məktəbəqədər yaşlı uşaqlarda formalaşdırdığı keyfiyyətlər barədə Prezident İlham Əliyevin 14 aprel 2017-ci il tarixdə imzaladığı 585-VQ nömrəli "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsinin 7.4. bəndində göstərilir:

"7.4. Məktəbəqədər təhsilin məzmunu uşaqlarda aşağıdakı keyfiyyətlərin formalaşdırılmasına yönəldilir:

7.4.1. cəmiyyətə sosial uyğunlaşma, kollektiv daxilində birgə fəaliyyət və ünsiyyət mədəniyyəti;

7.4.2. müstəqillik, məsuliyyət və cavabdehlik, özünə inam və iradəlilik;

7.4.3. müşahidə etdiklərinə münasibət bildirmək, qərar qəbul etmək və müstəqil öyrənmək;

7.4.4. təbiətə və insanlara həssas münasibət, özünün və digərlərinin hüquqlarına hörmət etmək"[3].

Göründüyü kimi, müasir məktəbəqədər təhsilin məzmunu uşaqların müstəqil formada cəmiyyətə adaptasiyasının, ətrafdakılarla sosiallaşmasının hörmət və həssas münasibətlər əsasında təşkilini onların ümumi inkişafında zəruri keyfiyyət göstəriciləri kimi qarşıya qoyaraq, davranışlarının ictimai tələblər əsasında təşkilinə xidmət edir. Uşaqların davranışının və şəxsiyyətinin formalaşmasına təkan verən sosial bacarıqlarının, özündən böyük və kiçiklərlə ünsiyyətinin müsbət emosiyalar, etik qaydalar əsasında özünəməxsus tərzdə təşkili və inkişafı ilə bağlı Məktəbəqədər təhsilin kurikulumunda deyilir: "Uşaq şəxsiyyətinin inkişafı üçün şərait yaradan sosial mühitdə ünsiyyətin rolu böyükdür. Ünsiyyət prosesində maddi və mənəvi dünyanın, təbiət, əşya və sosial aləmin dərk olunması, şəxsiyyətlərarası münasibətlərin inkişafı, emosional və iradi mədəniyyətin təşəkkül tapması baş verir. Ünsiyyət yeni sosial mühitə uyğunlaşmağa imkan yaradır və onun vasitəsilə uşaq özünü ifadə edir, digərlərini başa düşür, cəmiyyətdə öz yerini və vacibliyini dərk etməyə çalışır. Bunun üçün müvafiq bacarıqların mənimsənilməsi zəruri hesab edilir. Kommunikativ bacarıqlara nail olmaq uşağın sosial davranışını yaxşılaşdırır: digərini başa düşüb qəbul etməyə, məlumat verməyə, hisslərini ifadə etməyə, bütövlükdə nitq inkişafına imkan yaradır".

Uşaqların məktəbə hazırlığında zəruri hesab edilən sosial bacarıqlarla bağlı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Məktəbəhazırlığın təşkili qaydaları"nın təsdiq edilməsi haqqında 8 yanvar 2010-cu il tarixli № 4-li qərarında deyilir: **"sosial hazırlıq:**

yüksək əxlaqi təsəvvürlərin və vətəndaşlıq hisslərinin (vətənpərvərlik, humanistlik, digər millətlərə hörmət) inkişafı;

böyüklərlə və yaşıdları ilə ünsiyyətin qurulmasında yüksək mədəni davranış qaydalarının mənimsənilməsi;

öz hərəkətlərində əxlaq normalarının rəhbər tutulması və onlara riayət olunması".

Məktəbəqədər təhsilin hüquqi-normativ sənədlərinin məzmun komponentlərində əks olunan bu kimi sosial keyfiyyətlərin təlim və təlimdənkənar vaxtlarda (oyun, gəzinti, əyləncə və s. zamanı) innovativ texnologiyalarla uşaqların bacarıqlarında formalaşdırılaraq, səriştəyə çevrilməsi uşaq davranışının inkişaf faktorları kimi "Məktəbəqədər təhsilin kurikulumu" layihə sənədinin 3-6 yaş dövrlərini əhatə edən məzmun standartlarının ilin sonunadək reallaşması ilə həyata keçirilir. Uşaqların sosial bacarıqları əks olunan "İdrakın inkişafı", "Sosial-emosional inkişaf" və s. inkişaf sahələri üzrə mü-əyyənləşdirilmiş məzmun standartlarının il boyu cari və perspektiv plan əsasında müxtəlif fəaliyyət növləri zamanı müntəzəm olaraq reallaşdırılması bütün inkişaf sahələri arasında inteqrativlik yaradaraq, sosial bacarıqların uşaq davranışında möhkəmlənməsini və səriştəyə çevrilməsini təmin edir.

Məktəbəqədər təhsil müəssisələrində sosial səriştəliliyin formalaşdırılmasının kurikulumun məzmununa əsasən aşağıdakı komponentləri vardır:

1. Kommunikativ komponent uşaqların səs, söz, cümlə, hiss və həyəcan, jest və mimikalarla nümayiş etdirdikləri sadə ünsiyyət bacarıqlarını, yoldaşları və tərbiyəçi-müəllimlərlə, ətrafdakı digər insanlarla yaratdığı sosial əlaqələri, özlərinə qarşı olan münasibəti, eyni zamanda, onları əhatə edən digər insanların bir-birinə olan kommunikativ münasibətlərini izləyərək, dəyərləndirmələrini ifadə edir.

2. Koqnitiv komponent uşaqların davranışında cəmiyyət üçün məqsədəuyğun hesab edilən zəruri əxlaqi keyfiyyətlərin, milli-mənəvi və bəşəri dəyərlər haqqında sosial biliklərin müntəzəm tətbiq olunmaqla, səriştəyə çevrilməsini əhatə edir.

3. Fəaliyyət komponenti uşaqlarda sosial səriştəliliyi formalaşdıran ictimai əhəmiyyətli fəaliyyətləri əhatə edir. Təlim, oyun, əmək və s. kimi fəaliyyətlərin sistemli təşkili uşaqların bir-biri ilə və tərbiyəçi-müəllimlə sosiallaşmalarının struktur komponentlərini inteqrativ formada inkişaf etdirir.

4. Sosial münasibətləri dəyərləndirmə komponenti mehribanlıq, ədalətlilik, düzlük, qayğı, məsuliyyət, təşəbbüskarlıq və s. kimi sosial dəyərləri əks etdirir. Bu dəyərlərin uşaqların davranışında sərtiştəyə çevrilməsi onlarda özünəinam formalaşdıraraq, ətrafdakılarla asanlıqla ünsiyyətə girmələrinə, əməkdaşlıq etmələrinə şərait yaradır və uşaqlar onları əhatə edən cəmiyyətdə müşahidə etdikləri sosial münasibətləri dəyərləndirirlər. Bu səbəbdən, məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-müəllimlər, ailədə valideynlər, bütünlüklə uşaqları əhatə edən böyüklər istər uşaqlara, istərsə də digər insanlara qarşı sosial münasibətləri düzgün təşkil etməli, davranışları ilə uşaqlara nümunə olmalıdırlar.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların davranışının inkişafına təkan verən sosial səriştəlilik təlimdə və təlimdənkənar vaxtlarda aşağıdakı texnologiyalarla formalaşdırılır:

*1. Oyun texnologiyası* uşaqların sosial səriştəliliyinin formalaşdırılmasında əvəzolunmaz didaktik xarakterə malikdir. Oyun zamanı uşaqların bir araya gəlməsi, müntəzəm olaraq birgə fəaliyyətdə birləşmələri onların təəssüratlarının zənginləşməsinə, sosial biliklərinin təcrübə yolu ilə səriştəyə çevrilməsinə şərait yaradır. Oyun aşağıdakı texnoloji göstəricilərlə şərtlənir:

- *improvizə* uşaqların hazırlaşmadan oyunda iştirakını təmin edərək, onların müstəqil sosiallaşmasına xidmət edir;

- *spontan* uşaqların xarici təsirlərdən asılı olmadan qeyri-iradi olaraq oyuna qoşulması, özözünə yoldaşları ilə oynamasını ifadə edən göstəricilərdən biri kimi dəyərləndirilir;

- *empatiya* uşaqların oyun zamanı özlərini digərlərinin yerinə qoya bilmələri, onların emosiyalarını hərəkət və mimikalarından anlamaları ilə ifadə olunur;

- *oyunların təkrarlanması* uşaqların öz rollarının performansından zövq almalarını təmin edərək, oyunun məzmununu daha yaxşı başa düşmələrinə, sosial biliklərin bacarıqlarında möhkəmlənməsinə və beləliklə də başqalarının hisslərini başa düşərək, onlarla sosial qaydalara uyğun davranmalarını formalaşdırır.

Təcrübələr göstərir ki, uşaqların sosial bilik və bacarıqlara yiyələnmələrini oyun qədər heç bir fəaliyyət növü asan və pozitiv formada

təmin edə bilməz. Məktəbəqədər təhsil müəssisələrində təlimin oyunla təşkili və oyun xarakterliliyi uşaqların sosial səriştələrinin formalaşdırılmasına geniş imkanlar yaradaraq, onlarda təlimə motiv yaradır. Bu zaman "Sosial-emosional inkişaf" sahəsinin məzmun standartlarının digər inkişaf sahələrinin məzmun standartları ilə inteqrativ şəkildə reallaşması sosial bacarıqların uşaqların davranışında səriştəyə çevrilməsini təmin edir.

2. *Kommunikativ texnologiya* bütün fəaliyyət növlərini əhatə etməklə, uşaqların sosial səriştəliliyinin formalaşdırılmasını intensivləşdirir. "Kommunikativ bacarıqlara nail olmaq uşağın sosial davranışını yaxşılaşdırır: digərini başa düşüb, qəbul etməyə, məlumat verməyə, hisslərini ifadə etməyə, bütövlükdə nitq inkişafına imkan yaradır. Bu zaman qazanılan bacarıq və vərdişlər, milli-mənəvi keyfiyyətlər şəxsiyyətin həyat mövqeyini müəyyənləşdirir".

Məktəbəqədər təhsil müəssisələrində uşaqların kommunikativ bacarıqları söhbət, sual-cavab, müzakirə, şəkil üzrə iş, oyun, bədii oxu (tərbiyəçi-müəllimin oxusu) və s. yollarla formalaşdırılır.

*3. Əməkdaşlıq texnologiyası.* Uşaqların sosial səriştəliliyinin formalaşdırılmasında tərbiyəçi-müəllimdən ciddi pedaqoji səy tələb edən əməkdaşlıq adətən oyun, təlim, əmək fəaliyyəti, gəzinti və s. zamanı həyata keçirilərək, uşaqların yoldaşları və tərbiyəçi-müəllimlə əməkdaşlığının inkişafına geniş imkanlar yaradır. Burada məqsəd uşaqların ətrafdakı insanlarla birgə fəaliyyətinə, hiss və duyğularına hörmətlə yanaşmasına, ünsiyyət qurmasına, emosional vəziyyətlər haqqında biliklərinin bacarıqlarında nümayişinə imkan yaratmaqdır.

Uşaqların sosial səriştələrinin formalaşdırılmasında uşaq və tərbiyəçi-müəllim əməkdaşlığı ilə yanaşı valideyn əməkdaşlığı da mühüm əhəmiyyət kəsb edir. Tərbiyəçi-müəllimlərin valideynlərlə əməkdaşlığı *söhbətlər, görüşlər, sərgilər, yarışlar, bayramlar, müəyyən tədbirlər, ekskursiyalar* və s. yollarla təşkil etmələri valideynlərə uşaqlarının sosial bacarıqlarını əyani müşahidə etmələrinə, uşaqların sosial münasibətlərində yaranmış problemlərin həlli yollarının tərbiyəçi-müəllimlə birlikdə axtararaq, korrektə etmələrinə şərait yaradır.

4. *Əmək texnologiyası* uşaqların birgə fəaliyyətinə şərait yaradaraq, onlarda yüksək əxlaqi keyfiyyətlərin formalaşdırılmasını, potensiallarını pozitiv mühitdə müstəqil nümayiş etdirmələrini, qazandıqları nailiyyətləri dəyərləndirərək, yüksək əhval-ruhiyyə ilə fəaliyyət göstərmələrini təmin edir. Sosial bacarıqları möhkəmləndirən əmək texnologiyası məktəbəqədər təhsil müəssisələrində "Məişət-təsərrüfat əməyi", "Özünəxidmət əməyi", "Əl əməyi", "Növbətçilik zamanı icra olunan əmək fəaliyyəti" istiqamətlərində həyata keçirilir.

*5. Gəzinti texnologiyası* uşaqlarda ətraf aləmdəki obyektləri yaxından tanıma və onlarla sosial davranma bacarıqları formalaşdırır. Məqsədli təşkil olunan oyun, əmək və müşahidə xarakterli gəzinti texnologiyası müxtəlif oyunlar, əmək fəaliyyəti, yaxud obyektlərin müşahidəsi zamanı uşaqların müəyyən sosial bacarıqlara yiyələnmələrini inkişaf sahələrinin inteqrasiyası ilə reallaşdırır.

Məktəbəqədər təhsilin kurikulumunun (3-6 yaş) "Uşaqyönlük" və "Şəxsiyyətyönlük" prinsiplərinə əsasən uşaqların gələcək məktəb həyatına hazırlanmaları, cəmiyyətə asanlıqla adaptasiya olmaları məqsədi ilə onların sosial səriştəliliyinin sadalanan texnologiyalarla formalaşdırılması davranışlarının inkişafına təkan verən zəruri göstəricilər kimi dəyərləndirilir.

**Problemin aktuallığı:** Respublikamızın məktəbəqədər təhsil sahəsində həyata keçirilən islahatların müasir tələblər səviyyəsində aparılması uşaqların məktəbəhazırlığının səmərəli təşkili məqsədi ilə onların sosial bacarıqlarının səriştəyə çevrilməsini aktual problemlərindən biri kimi qarşıya qoyur.

**Problemin elmi yeniliyi:** Məqalədə məktəbəqədər təhsil müəssisələrində uşaqların davranışlarının inkişafına təkan verən sosial səriştəliliyin formalaşdırılması texnologiyaları araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti:** Məqalədən ali və orta-ixtisas məktəblərinin müəllimləri, tələbələr və magistrlar, tərbiyəçi-müəllimlər bəhrələnə bilərlər.

**Ədəbiyyat:**

1. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 14 aprel 2017-ci il. S. 6. http://www.e-qanun.az/framework/35791

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 8 yanvar 2010-cu il "Məktəbəhazırlığın təşkili qaydalari"nın təsdiq edilməsi haqqında № 4-li qərarı.

3. Məktəbəqədər təhsilin kurikulumu. Bakı, 2017.

4. K.R. Məmmədova. Oyun uşaq şəxsiyyətinin inkişafının vasitəsi kimi. Məktəbəqədər və ibtidai təhsil jurnalı. Bakı, 2011, № 1

5. Радугин А.А., Радугин К.А. Социология: курс лекций. 2. М.: Центр, 1999.

6. http://www.kamloops.childrenstherapy.org/social-emotional-preschool-milestones

7. https://www.cdl.org/articles/social-skills-and-school/ .

**E-mail:** kifayet.memmedova.1977@mail.ru

**Rəyçilər**: *ped.ü.fəls.dok.* **S. Sadıqova**

**Redaksiyaya daxil olub:** 15.08.2019.